# Qəbələdə stend atıcılığı üzrə IV Beynəlxalq Qran-Pri yarışları keçirilib

***Qəbələ" Atıcılıq Klubu növbəti dəfə möhtəşəm idman yarışlarından birinə ev sahibliyi edib. Mayın 8-də səhər saatlarından başlayaraq Qəbələ Stend və Ox Atıcılığı Kompleksində ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş stend atıcılığı üzrə IV Beynəlxalq Qran-Pri yarışlarına start verilib.***

"Qəbələ" Atıcılıq Klubunun təşkilatçılığı, Azərbaycan Atıcılıq Federasiyasının, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə keçirilən yarışda Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Özbəkistan, Rusiya, İran, Birləşmiş Ərəb Əmirlikləri və Bəhreyndən 70 idmançı iştirak edib. Beynəlxalq yarışın iştirakçıları arasında dünyanın tanınmış atıcıları, dünya və Avropa çempionları, olimpiya oyunlarının mükafatçıları da iştirak edib.

Stend və Ox Atıcılığı Kompleksində keçirilən stend atıcılığı üzrə IV Beynəlxalq Qran-Pri yarışlarında mayın 12-də dairəvi stend yarışlarının təsnifat mərhələsi və finalı keçirilib. Bu yarışda 9 ölkədən 35 idmançı tüfəngdən 125 hədəfə atəş açıb. Qadınlar, kişilər və gənclər arasında keçirilən yarışların hər birində yüksək xal toplayan 6 atıcı finalda iştirak etmək hüququ qazanıb. Bu mərhələdə isə idmançılar 60 hədəfə atəş açıblar.

Finalda qadınlardan Nurlana Cəfərova 53 xalla qızıl, Regina Meftahətdinova 49 xalla gümüş, 8 qat dünya çempionu olan rusiyalı Svetlana Domina 46 xalla bürünc medal qazanıb.



Kişilərin yarışında Bəhreyn atıcısı Hasan Muhammed 57 xalla birinci, Gürcüstan təmsilçisi Vladimir Narçinaşvili 54 xalla ikinci, Azərbaycan idmançısı Emin Cəfərov 45 xalla üçüncü yeri tutub.

Gənclər arasında Gürcüstan idmançısı Levan Kapanadze 98 xalla birinci, Azərbaycan idmançıları Cavid Həsənov 97 xalla ikinci, Fəqan Namazov 88 xalla üçüncü yeri tutub.

Sonra qaliblərin mükafatlandırılması mərasimi olub. İdmançılara medalları Azərbaycan Atıcılıq Federasiyasının birinci vitse-prezidenti Hafiz Cəfərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, "Qəbələ" Atıcılıq Klubunun vitse-prezidenti Elvin İsmayılov, Gənclər və İdman Nazirliyinin məsul işçisi Ülviyyə Hacıyeva təqdim edib.



Qeyd edək ki, mayın 8-dən 12-dək davam edən bu mötəbər yarışda idmançılar 6 dəst medal uğrunda mübarizə aparıblar. Azərbaycan idmançıları, ümumilikdə, 2 qızıl, 5 gümüş və 3 bürünc medal qazanıblar. Məlumat üçün bildirək ki, ötən gün kişilər arasında səngər stend yarışlarında rusiyalı Aleksey Alipov 47 xalla qızıl, Azərbaycan idmançısı Tamerlan Məmmədov 46 xalla gümüş, Rusiya atıcısı Aleksey Quliayev 36 xalla bürünc medal qazanmışdı. Qadınların yarışında isə rusiyalı Nataliya Zvaqinseva birinci, Azərbaycan atıcısı Aydan Camalova ikinci, Ukrayna atıcısı Alyona Axotska üçüncü yeri tutub. Gənclərin yarışında isə Azərbaycan idmançıları Sabir Mehdizadə birinci, Mirmömin Ağazadə ikinci, Vaqif Məmmədov üçüncü yeri tutub.

**"Qəbələ"**

# Yarış iştirakçılarının Qəbələ haqqında təəssüratları

***Hafiz Cəfərov: Azərbaycan müharibə şəraitində olduğundan atıcılıqla məşğul olan yeniyetmələrin sayı artırılmalıdır***



Son illər Azərbaycanda atıcılıq idmanının inkişafı istiqamətində xeyli işlər görülüb. Dövlət tərəfindən bu sahəyə böyük diqqət və qayğı göstərilir. Qəbələdə və Bakıda müasir atıcılıq kompleksləri inşa edilib. Azərbaycanda atıcılıq sahəsində çoxlu idmançıların yetişməsi üçün hər cür şərait var. Yeniyetmə və gənclər bu şəraitdən yaxşı bəhrələnərək yarışlarda yüksək nəticələr əldə edə bilərlər.

Bu sözləri müxbirimizlə müsahibəsində Azərbaycan Atıcılıq Federasiyasının birinci vitse-prezidenti, Əməkdar Məşqçi Hafiz Cəfərov deyib.

Hafiz Cəfərov müharibə şəraitində olan ölkəmizdə atıcılıqla məşğul olan yeniyetmə və gənclərin sayının artırılmasının vacibliyini vurğulayıb. O, Bakı və Qəbələdən başqa digər bölgələrdə də bu idman növünün yeniyetmələr arasında təbliği və inkişafı üçün tədbirlərin görülməsini vacib hesab edib.

***

***Nataliya Zvaqinseva: Dünyanın ən yaxşıları ilə mübarizə apararaq qalib gəlmək böyük xoşbəxtlikdir***



Əsrarəngiz gözəlliyə malik olan Qəbələyə səfər etdiyim üçün çox şadam. "Qəbələ" Atıcılıq Klubunun maddi-texniki bazasını çox bəyəndim. Qəbələ Stend və Ox Atıcılığı Kompleksi gözəl bir yerdə, dağların və meşələrin əhatəsində yerləşir.

Bu sözləri Qəbələdə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilən stend atıcılığı üzrə Beynəlxalq Qran-pri yarışlarında qızıl medal qazanan rusiyalı atıcı Nataliya Zvaqinseva müxbirimizlə müsahibəsində deyib.

***

***Tamerlan Məmmədov: Qızıl medal üçün yarışırdım, lakin əldə etdiyim nəticə də pis deyil***



Rəqiblərim çox peşəkar idi, yarış çətin keçdi və son nəticədə ikinci yeri tutdum. Burada təşkilatçılıq çox yüksək səviyyədədir. Qəbələ qran-prisi mənim yaddaşımda unudulmaz anlarla qalacaq. Belə ki, beynəlxalq qran-pri yarışlarının gümüş medalını qazandım. Bu medal həm də mənim beynəlxalq səviyyəli yarışlarda əldə etdiyim ən böyük uğurlardan biridir. Buna görə çox sevinirəm.

Bu sözləri müxbirimizlə müsahibəsində Qəbələ Stend və Ox Atıcılığı Kompleksində Heydər Əliyevin xatirəsinə həsr edilən Beynəlxalq Qran-pri yarışlarında səngər stend atıcılığı üzrə gümüş medal qazanan Tamerlan Məmmədov deyib.

***

***Olimpiya çempionu Aleksey Alipov: Azərbaycanın müasir atıcılıq kompleksləri, bacarıqlı və perspektivli gənc idmançıları var***



Komandamızın üzvləri Qəbələdə böyük qayğı ilə əhatə olunub. Təbiəti gözəl, insanları qonaqpərvər, idman infrastrukturu müasir olan bir məkanda atıcılıq üzrə beynəlxalq Qran-Pri yarışlarında iştirakıma görə çox sevinirəm. Mən hər dəfə Qəbələyə gələndə burada yarışların yüksək səviyyədə keçirildiyini, idmançılar və qonaqlar üçün hər cür şəraitin yaradıldığını görürəm. Bu, məni heyran edir və gördüklərimi öz ölkəmdə mütləq qeyd edirəm.

Bu sözləri tanınmış stend atıcısı, rusiyalı Olimpiya çempionu Aleksey Alipov müxbirimizlə müsahibəsində deyib.

Dünyanın reytinqli idmançılarının mübarizə apardıqları Qəbələ Qran-Prisini yüksək qiymətləndirən Aleksey Alipov deyib: "Çoxdandır ki, Azərbaycana gəlmək arzusunda idim. Ümumiyyətlə, Azərbaycanla bağlı hər şey məndə maraq doğurur. Azərbaycanda çoxlu dostlarım var. Düşünürəm ki, dünya səviyyəli idman yarışlarının keçirilməsi üçün təkcə Bakıda deyil, regionlarda da müasir infrastrukturun yaradılması və atıcılıq növləri üzrə Qran-Pri və Dünya Kuboku yarışlarının Qəbələdə keçirilməsi böyük önəm daşıyır.

***Azərbaycan Xalq Cumhuriyyəti-100***

# Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin iqtisadi siyasəti

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi platformasında mülkiyyət plüralizmi-dövlət mülkiyyəti, xüsusi, şəxsi, səhmdar, bələdiyyə mülkiyyəti və digər mülkiyyət formalarının inkişafı üçün bərabər imkanlar yaradılması nəzərdə tutulurdu. Cümhuriyyət liderləri fabrik, zavod, torpaq və digər əsas istehsal vasitələri üzərində xüsusi mülkiyyətə üstünlük verirdilər. Hesab edirdilər ki, "bu cür mülkiyyəti tamamilə aradan qaldırmaq indiki vəziyyətdə insanların şəxsi təşəbbüs qüvvətini zorakı olaraq aradan götürür". Mövcud olduğu 23 ay ərzində cümhuriyyət hökuməti bir sıra cari təsərrüfat məsələlərinin həllində mühüm uğurlar qazanmışdı. Azərbaycanda neft sənayesi ağır vəziyyətdən çıxarılmış, dağıdılmış Bakı - Batum neft kəməri bərpa olunmuş, Bakı - Culfa dəmiryolunun inşası davam etdirilmiş, Kür çayı üzərində körpü salınmış, Azərbaycan Dövlət Bankı yaradılmış, milli pul nişanları buraxılmış, Xəzər dəniz gəmiçiliyi inkişaf etdirilmişdi.

Müstəqil dövlətin atributu kimi, milli pul vahidinin buraxılması Cümhuriyyətin maliyyə siyasətinin mühüm uğuru idi. Hökumət çevik vergi siyasəti yeridir, dövlət xərclərinin ixtisar edilməsi istiqamətində tədbirlər görürdü. Bu məqsədlə xaricdən ölkəyə gömrüksüz gətirilən malların siyahısı müəyyənləşdirilmiş (bu siyahıya 200-dən çox məhsulun adı daxil edilmişdi), xarici sərmayəçilərə və Azərbaycana sərmayə qoymaq arzusunda olanlara güzəştli şərtlərlə milli pul təklif olunurdu. Azərbaycan hökumətinin xarici iqtisadi fəaliyyətində reallaşdırmağa çalışdığı başlıca vəzifələrdən biri əhalinin zəruri mallara olan ehtiyacını təmin etməkdən və xəzinənin gəlirlərini artırmaq üçün əlavə mənbələr axtarıb tapmaqdan ibarət idi.

Cümhuriyyətin xarici iqtisadi əlaqələrinin formalaşması baxımından Gürcüstanla bağlanan müqavilə mühüm əhəmiyyətə

**(Ardı 7-ci səhifədə).**